# Kiçikyaşlı məktəblilərin təlimə məsuliyyətli münasibətinin formalaşdırılmasında müəllim-valideyn ünsiyyətinin mövcud vəziyyətinin öyrənilməsi və təhlili

**Şəms Yusifova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** shems2293@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d. İ.B. Əmirəliyeva

**Açar sözlər:** məktəb, müəllim, təlim, valideyn, ünsiyyət, vətəndaş, tərbiyə
**Ключевые слова:** школа, учитель, обучение, родитель, общение, гражданин, воспитание
**Key words:** school, teacher, training, parent, communication, citizen, upbringing

Bu gün Azərbaycan məktəbi haqqında geniş ictimaiyyət arasında müxtəlif fikirlər səslənir. Yaxşı və pis məktəb, güclü və zəif müəllim anlayışları bütün hallarda müasir təhsilimizin səviyyəsinin göstəricisi kimi çıxış edir. Hazırda müəllim nüfuzu, müəllim-şagird münasibətləri, məktəbə olan hörmət və ehtiram barədə söhbət düşəndə mənfi məqamlar da narahatlıq doğurur. İnsanı yetişdirən, formalaşdıran ilk ocaq ailədən sonra məktəb və pedaqoji mühitdir. Müstəqil zövq, fərdi əqidə, əsl vətəndaşlıq səmimiyyəti, mühitlə qaynayıb-qarışmaq, daim axtarışda olmaq meyli, marağı, bir sözlə, bütöv şəxsiyyət probleminin həlli məhz məktəbdən, tədris sistemindən asılıdır.

Böyüyən nəslin tərbiyəsi çoxcəhətli və mürəkkəb prosesdir. Bu prosesdə bir çox qüvvələr iştirak edir: məktəbdə müəllimlə şagird kollektivi, ailədə valideynlər gənc nəslə tərbiyəvi təsir göstərirlər. Pedaqoji üçlüyün-məktəb ailə və ictimaiyyətin hər birinin tərbiyədə özünəməxsus yeri rolu vardır. Müəllim təkcə biliyini yox, ömrünü də şagirdləri arasında paylayır. Həm də müasir anlamda yalnız öyrətmir, eyni zamanda, yetişdirir, tərbiyə edir, formalaşdırır və hər bir gənci xalqa, cəmiyyətə təqdim edir. O, şagirdlərin zehni fəallığını təmini, müstəqil işləmələrinin qayğısına qalır, yetirmələrini düşündürücü suallar üzərində çalışdırır, keçilən mövzunu müasir həyatla əlaqələndirir, hər bir dərsin həm də tərbiyəvi xarakter daşımasına, uşaqların mənəvi aləminin zənginləşməsinə ciddi diqqət yetirir. Müəllim şagirdin səhvini ona elə çatdırmalıdır ki, bu həm uşağın dərsə olan marağını, həm də müəllimə olan hörməti azaltmamalıdır.

Müəllimlər tənbehedici üsullardan istifadə edərkən bu uşağı sındırmağa yox təhsilə münasibətini, davranışa münasibətini dəyişməyə təhrik etməlidir. Məktəblərimizdə bu problemlərin başlıca səbəbi kimi müəllim-şagird, müəllim-valideyn münasibətlərinin aşağı səviyyədə olmasından, müəllimlərin pedaqoji savadsızlığından irəli gəlir. Buna görə müəllimlər öz üzərində çalışmalı, Sovet dövründən qalma ənənələrdən uzaqlaşmalıdırlar.

Bəzən valideynlər də şagirdin müəllimə olan hörmətinin azalmasında əsas iştirakçı rolunu oynayırlar

Müəllim-şagird münasibətlərində valideynlər də yanlışlara yol verir. Müəllim şagirddən dərsi ciddiyyətlə tələb etsə də, bəzi valideynlər buna narazılıq edirlər. Valideynlərin bu cür yanaşması yanlışdır və düzəldilməlidir. Məktəb-valideyn əlaqəsi gücləndirilməlidir. Məktəbdə müəllimin nüfuzunun artırılması müəllim şəxsiyyətindən asılıdır.

Məktəblərdə nizam intizama ciddi fikir verilməlidir. Məktəblərimizdə müəllimlərin ciddiyyəti artırılmalıdır. Məktəbdə ciddi nizam-intizam olmalıdır. Bu şagirdlərə fiziki güc tətbiq etmək yolu ilə yox dövlətimizin qanunları ilə qəbuledilən qaydalar əsasında məktəblərimizdə tətbiq edilməlidir.

Müəllim-şagird münasibətində valideynin nə olursa olsun, öz övladının tərəfini saxlamasının uşağın təlim-tərbiyəsinə mənfi təsir göstərir. Hətta bəzi valideynlər düşünürlər ki, şagird dərsə hazır olmadığı halda belə müəllim ona irad bildirməməlidir. Bu fikir yanlışdır.

Hazırda təhsil sahəsində gedən əsas islahatlardan biri də təkmilləşmə, yeniləşmə prosesinə daxil olan müəllim-valideyn münasibətləri istiqamətində məktəbin yenidən qurulmasıdır. Valideyn iclası müəllim-valideyn əməkdaşlığının nümunəsidir. İclasda şagirdlərin təlim-tərbiyə nəticələri təhlil olunur, valideynlərə müxtəlif tövsiyələr verilir. Dərsə soyuq münasibət bəsləyən, davamiyyət pozan şagirdlərin valideynlərinə bu barədə məlumat verilir. Bu kimi mənfi halların aradan qaldırılması üçün valideyn və müəllim birgə əməkdaşlıq edirlər, problemin həll yolunu axtarırlar.

Valideyn, övladının təhsil prosesinə cəlb olunduğu zaman, şagirdin daha yüksək akademik davamiyyəti, həmçinin imtahanlarda və testlərdə daha yaxşı nəticəsi olur. Eyni zamanda, fəallıq göstəriciləri yaxşılaşır, şagirdin sosial bacarıqları inkişaf edir, onun hərəkətləri həm evdə, həm də məktəbdə pozitiv olur. Bunlar şagirdlərə həm məktəbdə tədris müddətində, həm də gələcək iş fəaliyyəti prosesində təsir göstərən ən əhəmiyyətli amillərdir. Lakin, valideynlər şagirdlərin məktəb həyatına səmərəli şəkildə necə daxil ola bilərlər, bu prosesdə məktəb onlara necə kömək edə bilər? “Valideynlərin cəlb olunması” nə deməkdir? “Valideynlərin cəlb olunması” termininin mənası – həm evdə, həm də məktəbdə şagirdlərin nailiyyətləri və təhsillərinin yaxşılaşdırılması üçün, valideynlər və müəllimlər tərəfindən birlikdə və sonsuz daşınan məsuliyyətdir. O, şagirdlərin akademik nailiyyətlərinin yaxşılaşdırılmasına vahid güclə kömək etmək üçün valideynləri və müəllimləri birləşdirir. “Valideynlərin cəlb olunması” valideynlərin bir qayda olaraq hərtərəfli əlaqələrdə, şagirdin təhsil prosesində və məktəbdə keçirilən müxtəlif tədbirlərdə iştirak etməsi deməkdir. Valideynlərin təhsil prosesinə cəlb edilməsi həm şagirdin nəticələrinin yaxşılaşdırılması üçün, həm də valideynin bacarıq və vərdişlərinin inkişafı üçün vacibdir. Bununla valideynin sosial, emosional və şəxsi xüsusiyyətləri dəyişir. Övladının təhsil prosesində iştirak etməklə valideyn öz övladına qarşı daha anlayışlı olur; Uşağın sosial, emosional və intellektual inkişafı üçün daha çox diqqət ayırır; övladına qarşı daha qayğıkeş, daha az sərt olur və övladının nailiyyətlərini daha çox qiymətləndirir; Daha çox özünəinamlı olur və uşağın təhsil və tərbiyə prosesinə məmnuniyyətlə qoşulur; qərar qəbul edərkən özünə daha çox inanır; öz bilik səviyyəsinin, bacarıq və vərdişlərinin yüksəlməsinə daha çox diqqət edir; öz ailəsinin və övladının ehtiyaclarını qarşılaya bilmək üçün müxtəlif imkanlardan daha bacarıqla istifadə edir; övladına öz fikirlərini və problemlərini daha dəqiq, daha tam söyləmək imkanı verir; övladının müəllimləri ilə daha pozitiv əlaqələr yaradır; Uşağın vəziyyəti haqqında daha dəqiq məlumat əldə edir və onun problemlərini həll etmək üçün vaxtında ölçülər götürür.

Valideyn ilə fəal əməkdaşlıq müəllimə daha çox özünəinamlı olması üçün kömək edir. Müəllimlərdə öz ixtisaslarına qarşı daha çox hörmət yaranacaq, onlar öz fəaliyyətlərindən və onun nəticələrindən daha çox razı qalacaqlar. Valideynlərin tədris prosesinə cəlb edilməsi müəllim və valideyn arasında mövcud olan əlaqənin keyfiyyətini yüksəldir. Bu da müəllimə uşaq haqqında sistematik olaraq hərtərəfli məlumat almaqda kömək edir. Tədris prosesində şagirdin fərdi ehtiyaclarını ödəmək müəllimə daha yaxşı nəticə verir.

**Məqalənin aktuallığı.** Məktəbdə təlim tərbiyə prosesini düzgün şəkildə

istiqamətləndirmək üçün müəllim-şagird-valideyn prosesini düzgün qurmaq lazımdır. Buna görə pedaqoji üçlük olan müəllim-şagird-valideyn münasibətləri düzgün elmi pedaqoji əsaslarda qurulmalıdır. Məqalə də məhz bu kimi məsələlərin araşdırılması baxımından aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, şagirdlərdə təlimə məsuliyyətli əməyin formalaşdırılması üçün müəllim və valideyn onların təlim və tərbiyəsində mənfi halları müəyyənləşdirilməsi ilə yanaşı həm də onların həlli yolları təklif olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı, 2013.
2. Rüstəmov F.A. Pedaqogika. Bakı: Elm və təhsil, 2012.
3. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2006.
4. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı, 1982.

**Ш. Юсифова**

## Изучение и анализ наличия связи учителя и родителя в формировании ответственного отношения младших школьников к обучению

## Резюме

Сотрудничество между учителями и родителями должно быть налажено на надлежащей основе для организации процесса обучения. Образовательные последствия для школы и семьи должны быть последовательными и дополнять друг друга. Единообразие требуется при обучении и других образовательных воздействиях.

**Sh. Yusifova**

## Study and analysis of the presence of teacher-parent communication in the formation of responsible attitude of the younger pupils to the training

## Summary

Teacher and parent collaboration should be established on a proper basis to arrange the training process. The educational implications of the school and the family should be consistent and complement each other. Uniformity is required when learning and other educational impacts.

**Redaksiyaya daxil olub:** 29.03.2019